**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ GÜRCÜSTANIN YERİ (1991-2019-cu İLLƏR)

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: Tarix

İddiaçı: **Çinarə Qabil qızı Səfərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**İkirəm Kərim oğlu Ağasiyev**

tarix üzrə fəlsəfə doktoru
**Elgün Söhbət oğlu Qəhrəmanov**

tarix üzrə fəlsəfə doktoru
**Camal Cuma oğlu Arıxov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: ______________ tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ______________ AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ümumi tarix elminin qarşısında dayanan vəzifələrdən biri ayrı-ayrı dövlətlərin Qafqaz siyasətini dərindən araşdırmaqdan və ümumiləşdirmələr aparmaqdan ibarətdir. Cənubi Qafqazda geniş maraqları olan Türkiyə Cümhuriyyətinin 1991-2019-cu illərdə Gürcüstan siyasətinin həyata keçirilmə tarixi bu baxımdan araşdırılmağa ehtiyac duyulan mövzulardan biridir. Problemin tədqiqini bir sıra amillər şərtləndirir. Türk-gürcü münasibətlərinin zəngin tarixi vardır. SSRİ-nin dağılmasından sonra Cənubi Qafqazda yaranmış yeni şərait Türkiyənin region, o cümlədən Gürcüstan siyasətinin məqsəd və vəzifələrinin formalaşmasına və həyata keçirilməsinə başlıca təsir göstərdi. Türkiyə dövləti milli maraqlarını əsas götürərək coğrafi və tarixi baxımdan yaxın, qonşu olduğu Gürcüstanla münasibətlər qurdu.

Gürcüstan uzun illər ərzində regiondakı strateji tərəfdaş ölkələri bir-birinə bağlayan körpü rolunu oynamışdır. Rusiyanın Ermənistanla, Türkiyənin isə Azərbaycanla birbaşa quru əlaqəsi Gürcüstan vasitəsilə həyata keçirilmişdir.[1] Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Türkiyəyə qarşı uydurma soyqırımı iddiaları, torpaq, təzminat tələbi və 1993-cü ildə Kəlbəcəri işğal etməsi ilə əlaqədar olaraq Türkiyə-Ermənistan sərhədlərinin bağlı olması problemlər yaratmışdı. Gürcüstan əlverişli strateji mövqeyi ilə Türkiyənin Cənubi Qafqazın aparıcı ölkəsi olan Azərbaycan Respublikası və Orta Asiyanın yeni müstəqil dövlətləri ilə quru əlaqələrinin qurulmasında vacib rol oynayırdı. Azərbaycan Respublikasının və Orta Asiya ölkələrinin karbohidrogen ehtiyatlarının daşınması üçün etibarlı ölkə olması Türkiyənin Gürcüstanla sıx münasibətlər saxlamasını şərtləndirirdi. Gürcüstan eyni zamanda Türkiyənin Şərqi Anadolu bölgəsinin müdafiəsi və təhlükəsizliyi

---

[1] Aydıngün, A., Asker, A. Gürcistan: De Jure Üniter, De Facto Parçalı // Bağımsızlıklarının Yirminci Yılında Azerbaycan, Gürcistan ve Ukrayna Türk Dilli Halklar - Türkiye ile İlişkiler / Ed. İ.Aydıngün, Ç.Balım. –Ankara: Atatürk Kültür Merkezi, – 2012. –s. 120.

baxımından da böyük əhəmiyyətə malikdir. Ona görə də Türkiyə dövləti Gürcüstanı özünün həyati mənafeləri zonasının tərkib hissəsi hesab edirdi. Təsadüfi deyildir ki, hələ XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal paşa Gürcüstanın Ankaradakı ilk səfiri Simon Mdivaniyə Qafqazın və Gürcüstanın Türkiyə üçün əhəmiyyəti barədə belə demişdi: *"Qərbdə güclü düşmənlərimiz var. Bizə xüsusilə güclü Qafqaz və ...gürcülər lazımdır. Bizə güclü Gürcüstan lazımdır. Biz Gürcüstanla birgə çalışmalıyıq ki, Qafqazın digər ölkələri də müstəqil olsun".*[2]

İndiyədək Türkiyədə və Gürcüstanda iki ölkə arasında əlaqələrin həm keçmişinə, həm də 1991-ci ildən sonrakı tarixinə həsr olunmuş bir sıra tədqiqat işləri yazılmışdır. Lakin Azərbaycan tarix elmində bu vaxtadək 1991-2019-cu illərdə Türkiyənin xarici siyasətində Gürcüstanın yeri məsələləri araşdırılmamışdır. Türkiyədə və Gürcüstanda aparılan tədqiqat işlərinin məzmununa ölkələrdəki siyasi konyunktura, tədqiqatçıların baxışları, siyasi və milli mənsubiyyətləri təsir edir. Üçüncü ölkə – Azərbaycan tarixçilərinin 1991-2019-cu illərdə Türkiyənin Gürcüstan siyasətini araşdırmaları Cənubi Qafqazdakı reallıqları, problemləri və perspektivləri daha dərindən və hərtərəfli qiymətləndirməyə imkan verir. Çünki Türkiyənin Gürcüstan siyasətinin mahiyyətini bilmədən tədqiq edilən illərdə Cənubi Qafqazda baş verən ziddiyyətli prosesləri düzgün dəyərləndirmək və nəticələr çıxarmaq çətindir.

Türkiyənin Gürcüstan siyasətinin Azərbaycanda tədqiqinin aktuallığını şərtləndirən amillərdən biri bu enerji ehtiyatlarının Türkiyəyə daşınmasında tranzit ölkə olması ilə bağlıdır. Bu istiqamətdə həyata keçirilən ilk layihələrdən biri olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin əhəmiyyəti haqqında danışarkən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev demişdir: *"Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı–Tbilisi–Ceyhan siyasi*

[2] Güzel, B. Türkiye-Gürcistan sınırında düzensiz göç hareketleri: Doğu Karadeniz örneğinde göçmen deneyimleri: / Doktora tezi. –Ankara, –2019. –s. 13.

*xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir".*[3]

Problemin dərindən araşdırılması ümumqafqaz tarixi və müasir dövrdə baş verən proseslər baxımından Azərbaycan Respublikasının regionda həlledici və təsirli rolunun düzgün qiymətləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin bu rolunu Prezident İlham Əliyev aşağıdakı kimi ifadə etmişdir: "*Azərbaycanın inkişafı, bölgədəki mövqelərimizin möhkəmlənməsi artıq reallıqdır. Azərbaycan iqtisadiyyatı Cənubi Qafqazın iqtisadiyyatının 75 faizini təşkil edir. Azərbaycanda yaranmış maliyyə imkanları bizə imkan verir ki, istənilən məsələni öz xeyrimizə həll edək".*[4]

Türkiyə-Gürcüstan münasibətləri Azərbaycan Respublikasının milli təhlükəsizlik, geosiyasi və geoiqtisadi maraqlarına birbaşa təsir göstərmişdir. Türkiyənin Gürcüstan siyasətinin həyata keçirilməsində Azərbaycan müəyyənedici amillərdən biri olmuşdur.

Problemin tədqiqi Ermənistan və xarici ölkələrdə yaşayan erməniəsilli tədqiqatçıların Türkiyənin xarici siyasətində Gürcüstanın tutduğu yeri saxtalaşdırmalarına, iki ölkə arasında münasibətləri pozmaq cəhdlərinə elmi əsaslandırılmış cavabların verilməsi baxımından da aktualdır. Belə cəhdlər həm də Azərbaycana qarşı yönəldiyindən tarix elminin vəzifələrindən biri onların əsassızlığını göstərməkdir.

Deməli, Azərbaycan tarix elminin qarşısında dayanan vəzifələrdən biri Türkiyə Cümhuriyyətinin Cənubi Qafqaz, o cümlədən Gürcüstan siyasətini dərindən tədqiq etmək olmalıdır.

Dissertasiya işinin xronoloji çərçivəsinin başlanğıcının 1991-ci il seçilməsi Gürcüstanın dövlət müstəqilliyinin bərpa edilməsi, son həddinin 2019-cu il götürülməsi isə Türkiyə Cümhuriyyətinin siyasi

---

[3] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Ə.Əliyev.–Bakı: Azərnəşr, c.41. –2012. –s. 208-209.

[4] Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [Çoxcildli] / İ.H.Əliyev.–Bakı: Azərnəşr, c.43. –2017. –s. 310-311.

sistemində, Gürcüstanda isə hakimiyyətdə baş verən dəyişikliklərlə əlaqədardır. Məlum olduğu kimi, 2018-ci ildə Türkiyədə parlamentli respublikadan prezidentli respublikaya keçid baş vermiş, siyasi idarəçilikdə baş nazir vəzifəsi aradan qaldırılmış, hökumətin qurulması səlahiyyəti ümumxalq səsverməsində seçilən prezidentə verilmişdir. Bununla da prezidentin xarici siyasət məsələlərində rolu artmışdır. 2018-ci ilin iyununda keçirilən seçkilərdən sonra Türkiyənin həm siyasi sistemində, həm də xarici siyasətində dəyişikliklər olmuşdur. Türkiyənin xarici siyasətində, o cümlədən Gürcüstan siyasətində 2019-cu ildən sonra yeni bir mərhələ başlamışdır. Gürcüstanda da dəyişikliklər baş vermişdir.

2018-ci ilin oktyabr ayında Gürcüstanda prezident seçkiləri keçirilmişdir. Həmin ilin dekabrında yeni prezident fəaliyyətə başlamış və 2019-cu il Gürcüstan tarixində, o cümlədən xarici siyasətində yeni bir dövrün başlanğıcı olmuşdur. Bu xronoloji çərçivə Cənubi Qafqazda yaranmış yeni şəraitdə Türkiyə Cümhuriyyətinin xarici siyasətində Gürcüstanın tutduğu yerin bütün tərəflərini sistemli şəkildə dərindən araşdırmağa imkan verir.

Türkiyənin Cənubi Qafqaz, o cümlədən Gürcüstan siyasətinin müxtəlif tərəflərinə Azərbaycan alimlərinin bəzi əsərlərində toxunulmuşdur. Musa Qasımlı[5], Həsənbala Sadıqov[6], İradə Hüseynova[7],

---

[5] Qasımlı, M.C. Aprel işğalından sonra Azərbaycanın xarici siyasət fəaliyyətinin Güney Qafqaz respublikaları ilə birləşdirilməsi və xaricdəki nümayəndəliklərin ləğv edilməsi // Azərbaycan Xalq Cümhuriyyəti və müasir dövr məqalələr toplusu. –Bakı: Diplomat, –1999, –s.45-55; Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissədə] / M.C.Qasımlı. –Bakı: Mütərcim, h.1. –2015. – 648 s.; Heydər Əliyev və Qafqaz problemləri / M.C.Qasımlı, E.H.Kəlbizadə, G.M.Musayeva, S.İ.Həbibbəyli. –Bakı: Aspoliqraf, –2023. – 320 s.; SSRİ-Türkiyə münasibətləri: [İki cilddə] / M.C.Qasımlı. –Bakı: Adiloğlu, –c.1. –2007. – 560 s.; –c.2. –2009. –400 s.; Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti: [3 cilddə] / M.C.Qasımlı. –Bakı: Adiloğlu, –c.2. –2001. – 406 s.; Türkiye – Sovyet Sosyalist Cumhuriyetleri Birliği İlişkileri. 1960-1980 / M.Qasımlı. –Ankara: ATAM, –2013. –599 s.; Азербайджан, Армения и Турция в 1920-1994 гг.: реальная история / М.Гасымлы. – Москва: Инсан, –2016. –615 с.; Турция–СССР: от переворота до распада. 1980-1991 / М.Дж. Гасымлы. – Москва: Инсан, –2010. –408 с.

İradə Bağırova[8], Camal Arıxov[9], Rəşad İbrahimov[10], Elnur Kəlbizadə[11], Kəmalə Aloyeva[12], Şamil Rəhmanzadə[13], Murad Əsədov[14], Samirə Həbibbəyli[15] və başqalarının əsərlərində[16] müxtəlif tarixi

---

[6] Sadıqov, H. Rusiya-Türkiyə münasibətlərində Qafqaz problemi. 1787-1829-cu illər / H. Sadıqov. –Bakı: Elm, –1991. – 176 s.

[7] Гусейнова, И.М. История народов Кавказа / Учебник. –Баку: Элм ве техсил, –2018, –1248 с.

[8] Bağırova, İ.S. və b. Azərbaycan – Gürcüstan münasibətləri tarixi (XVIII əsr – XXI əsrin əvvəlləri) / İ.Bağırova, Ş.Həmidova, S.Əliyeva, Ş.Rəhmanzadə [və b.] –Bakı: Şərq-Qərb, –2013. –392 s.; Проблемы безопасности на Южном Кавказе – императивы глобализации // Yeni geostrateji münasibətlərdə Cənubi Qafqaz regionunun yeri: beynəlxalq elmi konfrans, –Bakı: Qərb universiteti, –2003. –c.60-69; Integration Processes in the Southern Caucasus and the great power policy: a historical excursion back to the 20th century // The Caucasus and Globalization, –2007. Vol.1 (2), –pp.89-100.

[9] Arıxov, C. Azərbaycan - Gürcüstan: dostluq münasibətlərinin inkişaf dinamikası (1992-2003-cü illər) / C.Arıxov. –Bakı: Qanun, –2008. –128 s.

[10] İbrahimov, R.H. XX əsrin 90-cı illərində Azərbaycan və Gürcüstan respublikaları arasında münasibətlər: / tarix elmləri namizədi dis. / –Bakı, 2007. –192 s.

[11] Kəlbizadə, E.H. Ahıska türkləri: deportasiyadan Xocalı soyqırımına // Qafqazda deportasiyalar. Respublika elmi konfransı, –Bakı: Mütərcim, –2018, –s. 86-87; Абхазия – провинция «Великой Армении»? // Наследие, -2021. № 109, -с. 40-44; Абхазия – провинция «Великой Армении»? // Наследие, –2021. №110, –с. 46-52.

[12] Aloyeva, K. Qara dəniz iqtisadi əməkdaşlıq təşkilatı çərçivəsində Azərbaycan-Türkiyə-Gürcüstan arasında enerji sektoruna əsaslanan regional inteqrasiyanın əsas istiqamətləri // –Bakı: Tarix və onun problemləri, –2013. № 2, –s. 437-446.

[13] Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri) / Ş.Rəhmanzadə. –Bakı: Aspoliqraf, –2008. –376 s.

[14] Esedov, M. Türkiye-Gürcistan ticari ilişkilerinde tarım sektörunun etkisi // Türkiye'de tarım politikaları ve ülke ekonomisine katkıları uluslararası sempozyumu bildirileri, -12-14 Nisan, 2018, Şanlıurfa. –Ankara, –2019. –ss. 327-338.

[15] Habibbeyli, S.İ. Azerbaycan-Türkiye-Gürcistan iş birliği Güney Kafkasya'da sabitleştirici faktör gibi (Azerbaycan'dan bakış) // "Kafkasya'da Barış Arayışları" uluslararası bilimsel sempozyumu, -Gori: Gori Devlet Üniversitesi, –2020, Ekim 28-29. Gori: LEPL, –2021. –ss. 125-140.

[16] Ömərov, V.A. Gürcüstan: daxili ictimai-siyasi şərait / V.A.Ömərov, E.H.Kəlbizadə, N.E.Mirzəyeva. –Bakı: Mütərcim, –2018. –169 s.;

dövrlərdə Türkiyə-Gürcüstan münasibətlərinə dair bir sıra məlumatlara rast gəlinir. Bu əsərlərdə iki ölkə arasında əlaqələrin tarixi kökləri, Türkiyənin Cənubi Qafqaz siyasətində Gürcüstanın yeri, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli əməkdaşlığın, enerji diplomatiyasının müxtəlif tərəfləri, bölgədəki inteqrasiya proseslərində iştirakı məsələləri təhlil edilmişdir.

Türkiyənin Gürcüstan siyasətinin öyrənilməsinə türk tədqiqatçıları xüsusi diqqət yetirmişlər. Mitat Çelikpala, Çabuk Sedat, Selçuk Çolakoğlu, Haydar Çakmak, Okan Mert, Serpil Sürmeli, Doğan Şafak Polat və başqaları 1991-ci ildən sonra Türkiyənin Gürcüstan siyasətinə həsr olunmuş əsərlər yazmışlar.

M.Çelikpala daha çox Türkiyənin Gürcüstan siyasətinə yeni müstəqil dövlətlərə münasibətdə yürüdülən ümumi siyasət kontekstində yanaşmışdır.[17] Müəllifin əsərlərində Türkiyədəki gürcü, abxaz və digər qafqazəsilli icmaların və diasporların ölkənin regional siyasətində təsirləri təhlil olunmuşdur.[18]

Ç.Sedat iki ölkə arasında əlaqələri və Türkiyənin Gürcüstan siyasətini perspektivlər baxımından təhlil etmişdir.[19]

---

Ömərov, V.A. Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası / V.A.Ömərov, E.H.Kəlbizadə, S.İ.Həbibbəyli [və b.] –Bakı: MTM Innovation MMC, –2019. –320 s.;

[17] Çelikpala, M. Bağımsız Gürcistan'ın 20 yılı: başarısız devlet mi, demokratik model ülke mi? // Kafkaslarda değişim dönüşüm. / Der. M.Aydın. –Ankara: Nobel yayınları, –2013. –s. 65-111; Son Yirmi Yılda Türkiye’nin Azerbaycan, Gürcistan ve Ukrayna’ya Yönelik Dış Politikası ve Bu Ülkelerdeki Faaliyetleri // Bağımsızlıklarının Yirminci Yılında Azerbaycan, Gürcistan ve Ukrayna Türk Dilli Halklar - Türkiye ile İlişkiler / Ed. İ.Aydıngün, Ç.Balım. –Ankara: Atatürk Kültür Merkezi, –2012. –ss. 309-402; Türkiye’de Kafkas Diasporası ve Türk Dış Politikasına Etkileri // Türkiye’nin Avrasya Macerası. 1989-2006 / der. M.Aydın. –Ankara: Nobel yayınları, –2008, –ss. 35-71; Çelikpala, M., Veliyev, C. Azerbaycan-Gürcistan-Türkiye Bölgesel İşbirliğinin Başarı Örneği // CİES, Policy Brief, –2015. № 3, –ss. 1-24.

[18] Çelikpala, M. Türkiye’de Kafkas Diasporası ve Türk Dış Politikasına Etkileri // Türkiye’nin Avrasya Macerası. 1989-2006 / der. M.Aydın. –Ankara: Nobel yayınları, –2008, –ss. 35-71.

[19] Çabuk, S. Türkiye-Gürcistan ilişkileri ve Türkiye’nin Takip Etmesi Gereken Politikalar: / Yayınlanmamış akademi tezi. –İstanbul, 2001. –197 s.

S.Çolakoğlunun əsərləri Türkiyə-Gürcüstan münasibətlərinə həsr olunmuşdur.[20] Müəllifin 1999-cu ildə çap olunan əsəri 1991-1999-cu illərdə iki ölkə arasında qarşılıqlı münasibətlərin ümumi mənzərəsini öyrənmək baxımından əhəmiyyətlidir.[21]

H.Çakmak SSRİ-nin süqutu ərəfəsində Gürcüstanın siyasi, sosial, iqtisadi həyatı ilə müstəqillik illərindəki proseslərə dair müqayisəli təhlillər aparmışdır.[22]

O.Mert Türkiyənin Gürcüstanla münasibətlərini ümumi Qafqaz siyasəti kontekstində tədqiq etmişdir.[23]

S.Sürmelinin tədqiqatları daha çox Türkiyə-Gürcüstan əlaqələrinin tarixindən bəhs edir.[24]

D.Ş.Polat Türkiyənin Gürcüstan və Azərbaycanla iqtisadi, siyasi və hərbi əlaqələrinin regional təhlükəsizliyə təsirlərini tədqiq etmiş, bölgəni təhlükəsizlik zonasına çevirməyə çalışdığını əsaslandırmasının başlıca məqsədinin şərqdən gələn təhdidlərə qarşı ittifaq formalaşdırmaq olduğu qənaətinə gəlmişdir.[25] Daha çox təhlükəsizlik amilinə diqqət yetirdiyi üçün bir sıra digər amillər müəllif tərəfindən arxa planda saxlanılmışdır.

Bülent Buttanrının Qara dənizin regional siyasətdə əhəmiyyətinə

[20] Çolakoğlu, S. Türkiye'nin Gürcistan Politikası / S.Çolakoğlu. –Aydın: Adnan Menderes Üniversitesi yayınları, –1999. –180 s.; Türkiye-Gürcistan ilişkileri // TASAM Stratejik Öngörü, –2005. №6, –ss. 29-39.

[21] Çolakoğlu, S. Türkiye'nin Gürcistan Politikası / S.Çolakoğlu. –Aydın: Adnan Menderes Üniversitesi yayınları, –1999. –180 s.

[22] Çakmak, H. 1989'dan Günümüze Gürcistan / H.Çakmak. –Trabzon: KTÜ, –1998. –88 s.

[23] Mert, O. Türkiye'nin Kafkasya Politikası ve Gürcistan / O.Mert. –İstanbul: IQ, –2004. –360 s.

[24] Sürmeli, S. Kars konferansı ve Gürcistan // 3. Uluslararası Kafkasya tarih sempozyumu (Kars antlaşması ve bölgesel etkileri). –Kars: Kars Kafkas Üniversitesi, –13-15 Ekim, –2012, –ss. 56-64.; Türk-Gürcü ilişkileri (1918-1921) / S.Sürmeli. –Ankara: Atatürk Araştırma Merkezi yayınları, –2001. –736 s.

[25] Polat, D.Ş. Kafkasya'da Türkiye, Azerbaycan ve Gürcistan İttifakının Bölgesel Güvenliğe Etkileri // İstanbul Gelişim Üniversitesi Sosyal Bilimler Dergisi, –2019. №6 (2), –ss. 248-265.

dair kitabı[26], Zakir Afşar, Zafer Tuncalpın Türkiyənin Gürcüstan siyasətində hər zaman mühüm yer tutmuş Ahıska türklərinin taleyi ilə bağlı əsəri[27], İbrahim Tellioğlunun türk-gürcü münasibətlərinin tarixinə dair tədqiqatları[28] mövzunun müxtəlif tərəflərinin öyrənilməsində tədqiqata cəlb edilmişdir.

Dissertasiya işi yazılarkən Gürcüstan alimlərinin əsərlərindən də geniş istifadə edilmişdir. Zeynəb Baxturidze[29], Quram Maçavariani[30], Nodar Komaxidze[31], Giorgi Baqaturia, Teona Dumbadze[32], Sofia Petriaşvili[33], Valeri Modebadze[34], Salome Tvalodze və Givi Adeişvilinin[35] tədqiqatları Türkiyənin Gürcüstan siyasətinə və iki ölkə arasında əlaqələrə həsr edilmişdir.

---

[26] Buttanrı, B. Bölgesel Güç Karadeniz / B.Buttanrı. –İstanbul: IQ, –2004. –272 s.

[27] Afşar, Z., Tunçalp, Z. Sürgünde 50 yıl. Ahıska türkleri / Z.Afşar, Z.Tunçalp. –Ankara: TMBB Kültür, Sanat ve Yayın Kurulu yayınları, –1994. –145 s.

[28] Tellioğlu, İ. XI-XIII. Yüzyıllarda Türk-Gürcü İlişkileri / İ.Tellioğlu. –Trabzon: Serander yayınları, –2009. –165 s.; Orta Çağ'da Türk-Gürcü münasebetlerini şekillendiren faktörler // 38. Icanas Uluslararası Asya ve Kuzey Afrika Çalışmaları Kongresi, Doğubilim Çalışmaları, Bildiriler, VI, –10-15 Eylül, 2007, –Ankara, –2009. –ss. 3077-3089; Türkiye'de gürcü tarihi ve kültürü ile ilgili araştırmalar // Türk-gürcü ilişkileri: tarih ve çağdaşlık / Ed. İ.Tellioğlu, R.Kavrelişvili. –Trabzon: Gündüz, –2017. –ss. 63-85.; Tellioğlu, İ., Kavrelişvili, R. Orta Çağda Türk-Gürcü ilişkileri / İ.Tellioğlu, R.Kavrelişvili. –Gori: Gori Eğitim Üniversiteti, –2019. –528 s.

[29] Бахтуридзе, З.З. Внешняя политика Грузии в контексте развития международных отношений на постсоветском пространстве: / Дис. на соискание ученой степени д. п. Н./ –Санкт-Петербург, 2016. –316 с.

[30] Мачавариани, Г.Г. Внешняя политика Грузии на Южном Кавказе (1991-2016) / дис. на соискание ученой степени к.и.н. / –Москва, 2017. –187 с.

[31] Komahidze, N. Yakın Geçmişte Türkiye-Gürcistan İlişkileri // Mamuli, –1997. №. 3, –ss. 13-16.

[32] Bagaturia, G., Dumbadze, T. Managerial Strategies for Georgian-Turkish Economic Relation // Journal of Business, –2013. №2 (2), –pp. 23-31.

[33] Petriashvili S. Where is the Black Sea Region in Turkey's Foreign Policy? // Turkish Policy Quarterly, –2015. Vol. 14, № 3, –pp. 105-112.

[34] Modebadze, V., Sayın, F.M., Yılmaz, R. Georgian – Turkish Relations since the Breakdown of Soviet Union // Çankırı Karatekin Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, –2014. Cilt 4, Sayı 1, –pp. 359-369.

[35] Tvalodze, S., Adeishvili, G. Georgian-Turkey trade relations – Challenges and Opportunities // Konrad Adenauer Foundation, –2016. –46 p.

Türkiyənin Gürcüstan siyasəti Rusiya tarix elmində tədqiqat obyektlərindən biri olmuşdur. Bu baxımdan Aleksandr Duqin[36], Sergey Qonçarenko[37], Andrey Deqtyev, Adlan Marqoyev, Aleksey Tokaryev[38], Nina Belyakova[39] və başqalarının əsərlərindən tədqiqat işində istifadə olunmuşdur.

Dissertasiya işi yazılarkən digər ölkələrin alim və tədqiqatçılarının problemlə bu və ya digər dərəcədə bağlı olan əsərlərinə də müraciət edilmişdir. Z.Bjezinskinin[40], S.Kornelin[41], K.Vakizakanın[42] əsərləri bu baxımdan əhəmiyyətli olmuşdur.

Tədqiqat zamanı Ermənistandan olan və ya xarici ölkələrdə yaşayan erməniəsilli müəlliflərin Türkiyənin Gürcüstan siyasətinə həsr edilmiş əsərləri də öyrənilmişdir. Belə müəlliflər sırasında L.Aleksanyan[43] və A.Yeqizaryanın[44] adlarını çəkmək olar. Onlar iki ölkə arasında münasibətlərdə problemli məsələləri axtarmağa, süni şəkildə qabartmağa, Türkiyənin Gürcüstan siyasətini təcavüzkarlıq kimi izah etməyə cəhd göstərirlər. Həmin əsərlər qərəzli xarakter

---

[36] Дугин, А. Основы геополитики. Геополитические будущее России / А.Дугин. –Москва: Арктогея, –1997. –352 с.

[37] Гончаренко, С.Н. Черноморское экономическое сотрудничество: первые 25 лет / С.Н.Гончаренко. – Москва: Ин-т Европы РАН, –2018. – 114 с.

[38] Дегтев, А., Маргоев А., Токарев А. Экономика Грузии в пространстве противоречий региональных держав // Вестник МГИМО, –2016. №2(47), –с. 219-233.

[39] Белякова, Н.С. Роль и место Черноморского региона во внешней политике Турецкой Республики на современном этапе: / Дис. на соискание ученой степени к.п.н./ – Москва, 2015. –249 с.

[40] Brzezinski, Z. The grand chessboard. American Primacy and its geostrategic imperatives / Z.Brzezinski. Washington: SA5IC Books. –1997. –215 p.

[41] Cornell, S.E. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus / S.Cornell. –London: Routledge, –2000. –480 p.

[42] Wakizaka, K. Türkiye'deki gürcü ve çerkes diasporasının gözüyle Abhazya meselesi ve kimlik sorunu: / Yüksek lisans tezi / –İstanbul, 2012. –157 s.

[43] Алексанян, Л.М. Грузия во внешней политике Турции на современном этапе: / Дис. на соискание ученой степени к.п.н. / –Москва, 2019. –180 с.

[44] Егиазарян, А. Грузия: структурные проблемы экономики и турецкая экономическая экспансия (1994-2007) /А. Егиазарян. –Ериван-Москва: Regnum, –2007. –86 с.

daşıyaraq türk-gürcü münasibətlərini pozmaq məqsədi güddüyündən elmi əhəmiyyət daşımaqdan uzaqdır.

Dissertasiya işi yazılarkən Türkiyə və Gürcüstan arasında münasibətlərin müxtəlif tərəflərinin əks olunduğu arxiv materialları, imzalanmış sənədlər, toplular[45] və digər mənbələr elmi dövriyyəyə gətirilmişdir. Ayrı-ayrı dövlət xadimlərinin əsərlərindən, memuarlarından, nitqləri və çıxışlarının əksini tapdığı toplulardan tədqiqat işində istifadə edilmişdir.[46]

Türkiyənin Gürcüstan siyasətinin həyata keçirilməsi, hökumətlərin mövqeyi, keçirilən görüşlərə dair rəsmi açıqlamalar Türkiyə Böyük Millət Məclisinin, Xarici İşlər Nazirliyinin və başqa dövlət orqanlarının dərc etdirdiyi hökumət proqramlarında, toplularda və hesabatlarda verilmişdir. İki ölkə arasında ticarət-iqtisadi, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri Gürcüstanın İqtisadi İnkişaf Nazirliyinin müxtəlif illər üzrə çap etdirdiyi sənəd və məlumatlarda toplanılmışdır.

NATO-nun Rəsmi Sənədlərinin Elektron Arxivinin, Türkiyə Böyük Millət Məclisi Arxivinin, Gürcüstan Milli Arxivinin elektron materiallarının bir qismi tədqiqata cəlb olunmuşdur.

Türkiyə və Gürcüstan arasında çoxtərəfli formatda əməkdaşlıq məsələləri araşdırılarkən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, QDİƏT Parlament Assambleyası, TRACECA, Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyinin, Tbilisidəki səfirliyinin, Batumidəki konsulluğunun, Ədalət və İnkişaf Partiyasının, Gürcüstan Xarici İşlər Nazirliyinin, Milli Statistika Ofisinin rəsmi internet səhifələrindəki materiallardan da istifadə edilmişdir.

Türkiyənin xarici siyasətində Gürcüstanın tutduğu yerə dair

---

[45] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində) / Naxçıvan Muxtar Respublikası Ali Məclisi. –Naxçıvan: Əcəmi, –2004. –138 s.

[46] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev.–Bakı: Azərnəşr, c.18. –2006. –552 s.; c.23. –2008. –480 s.; c.41. –2012. –488 s.;
Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [Çoxcildli] / İ.H.Əliyev.–Bakı: Azərnəşr, c.43. –2017. – 400 s.;
Шеварднадзе, Е. Когда рухнул железний занавес. Встречи и воспоминания / –Москва: Изд. Европа, –2009. –428 с.

məlumatlar kütləvi informasiya vasitələrində də əksini tapmışdır. Dissertasiya işi yazılarkən Azərbaycan, Türkiyə, Gürcüstan və Rusiyanın kütləvi informasiya vasitələrinin məqalə və xəbər materialları tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti 1991-2019-cu illərdə Türkiyənin xarici siyasətində Gürcüstanın tutduğu yerin araşdırılmasıdır. Tədqiqatın predmetini Türkiyənin Gürcüstan siyasətinə təsir edən, qarşılıqlı münasibətləri şərtləndirən amillər, başlıca məqsədləri, bu siyasətin formalaşması və inkişafı, ona Azərbaycan amilinin təsiri, siyasi-diplomatik münasibətlər, təhlükəsizlik və müdafiə məsələləri, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlığı, Gürcüstanda separatizm probleminə Türkiyənin yanaşması, ticarət-iqtisadi əməkdaşlığın həyata keçirilməsi, enerji, nəqliyyat-kommunikasiya siyasəti, mədəni-humanitar və çoxtərəfli əməkdaşlıq tarixi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi 1991-2019-cu illərdə Türkiyə Cümhuriyyətinin xarici siyasətində Gürcüstanın tutduğu yerin, Gürcüstan siyasətinin formalaşmasının, inkişaf mərhələlərinin, xarakterik xüsusiyyətlərinin tədqiqi və bunun regionun digər ölkələrinə təsirlərini kompleks və sistemli araşdırmaqdır. Qarşıya qoyulmuş başlıca məqsədə çatmaqdan ötrü aşağıdakı konkret vəzifələr müəyyənləşdirilmişdir:

- Tədqiq olunan xronoloji çərçivədə Türkiyənin Gürcüstan siyasətinin məqsədlərini və xarakterik xüsusiyyətlərini tədqiq etmək;
- Gürcüstanın Türkiyənin Cənubi Qafqaz siyasəti üçün əhəmiyyətini müəyyənləşdirmək;
- Türkiyə və Gürcüstanı yaxınlaşdıran tarixi və müasir amilləri tədqiq etmək;
- Türkiyənin Gürcüstan siyasətinin formalaşmasını, həyata keçirilmə tarixini, siyasi-diplomatik əlaqələrin istiqamətlərini və mərhələlərini öyrənmək;
- Türkiyənin Gürcüstana münasibətdə təhlükəsizlik və müdafiə siyasətinin reallaşdırılmasını araşdırmaq;

- Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlığının qurulmasını, həyata keçirilməsini və nəticələrini tədqiq etmək;

- Gürcüstanda separatizmə Türkiyənin mövqeyini öyrənmək;

- Türkiyənin Gürcüstan siyasətində ticarət-iqtisadi əməkdaşlığı tarixi-xronoloji kontekstdə təhlil etmək, tərəflər üçün əhəmiyyətini göstərmək;

- çoxtərəfli əsasda iki ölkənin siyasi, müdafiə, təhlükəsizlik və iqtisadi əməkdaşlığını araşdırmaq və faydasını qiymətləndirmək.

**Tədqiqat metodları.** Dissertasiya işi yazılarkən tarixi-coğrafi, tarixi-siyasi, tarixi-iqtisadi, tarixi-mədəni, sistemli, kompleks yanaşmalar əsas götürülmüşdür. Hadisə və proseslərin tədqiqi zamanı təhlil, müqayisəli təhlil, tənqidi təhlil metodları tətbiq edilmişdir. Türkiyənin Gürcüstanda iqtisadi siyasəti araşdırılarkən statistik məlumatların təhlili zamanı riyazi metodlardan istifadə olunmuşdur. Qeyd olunan metodlarla yanaşı tarix elmində qəbul olunmuş digər ümumi tədqiqat metodlarına da müraciət edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

- Türkiyə Cümhuriyyəti 1991-2019-cu illərdə Gürcüstan siyasətini yeni geosiyasi şəraitə uyğun olaraq formalaşdırmış və həyata keçirmişdir;

- Türkiyə Cümhuriyyəti tədqiq olunan illərdə regional əməkdaşlığın siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi, enerji, mədəni, humanitar və təhsil mexanizmlərini Türkiyə-Gürcüstan-Azərbaycan üçtərəfli formatında formalaşdırmışdır. Bu, iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsinə, Türkiyənin Gürcüstan üzərində iqtisadi, hərbi-siyasi və mədəni təsirlərinin artmasına gətirib çıxarmışdır. Türkiyə Cümhuriyyəti Gürcüstan, Gürcüstan da Türkiyə Cümhuriyyəti üçün əhəmiyyətli ölkədir;

- tədqiq olunan xronoloji çərçivədə fəal ticarət, iqtisadi və investisiya siyasəti yürüdən Türkiyə Gürcüstan iqtisadiyyatında iştirakını genişləndirməyə çalışmışdır. İkitərəfli ticarət-iqtisadi münasibətlərdə təbii olaraq bərabərsizlik mövcud olmuş, ticarət dövriyyəsində Türkiyə üstün rola malik olmuşdur. Belə vəziyyət ölkələrin həm ərazi, həm

iqtisadi ehtiyatlarının həcmindən, həm də iqtisadi inkişaf səviyyələri arasında mövcud olan fərqdən irəli gəlmişdir;

- Türkiyə-Gürcüstan iqtisadi əməkdaşlığı enerji maraqları ilə sıx bağlı olmuşdur. Türkiyə Avropa ilə Asiya arasında enerji dəhlizinə çevrilməyə çalışmış və buna nail olmuşdur. Ermənistanın Türkiyəyə və Azərbaycana münasibətdə yürütdüyü düşmənçilik, təcavüzkarlıq siyasəti bu baxımdan Gürcüstanı əhəmiyyətli bir ölkəyə və regiondakı əsas tərəfdaşlardan birinə çevirmişdir. Əməkdaşlıq Gürcüstanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və sosial-iqtisadi inkişafına təsir etmişdir;

- Türkiyə Cümhuriyyəti bəzi digər dövlətlərdən fərqli olaraq Ahıska türklərinin Gürcüstana repatriasiyası məsələsindən siyasi alət kimi bu ölkəyə qarşı istifadə etməmişdir. Əksinə Ahıska türklərinə öz ərazisində yaşamaq imkanı yaratmaqla Gürcüstanın bu məsələni tədricən həll etməsindən ötrü əlverişli şərait yaratmışdır;

- Türkiyə dövləti Gürcüstan siyasətində çoxtərəfli əsasda əməkdaşlığı fəal şəkildə həyata keçirmişdir. Ölkələr Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını ikitərəfli əlaqələrin inkişafı üçün vacib çoxtərəfli mexanizm kimi qiymətləndirmişlər;

- Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli əməkdaşlıq mexanizmi Türkiyənin Cənubi Qafqazda nüfuzunu gücləndirdiyi kimi, regionda marağı olan digər ölkələrin Azərbaycan və Gürcüstan üzərində təzyiqlərinin və təhdidlərinin artmasının qarşısını almışdır. Bu baxımdan ikitərəfli və çoxtərəfli formatda hərbi-təhlükəsizlik sahəsində əməkdaşlıq əhəmiyyətli olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi ilk növbədə problemin qoyuluşu ilə bağlıdır. Tədqiqat işinin elmi yeniliyi konkret olaraq aşağıdakılarda əksini tapmışdır:

- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq 1991-2019-cu illəri əhatə edən xronoloji çərçivədə Türkiyə dövlətinin xarici siyasətində Gürcüstanın tutduğu yer kompleks şəkildə araşdırılmışdır. Belə nəticəyə gəlinmişdir ki, Türkiyənin Gürcüstana münasibətdə fəal siyasəti milli maraqlarından irəli gəlmiş, bu ölkədə və bütövlükdə Cənubi Qafqazda öz mövqelərini gücləndirməyə yönəlmişdir;

- Gürcüstan üzərində Türkiyənin təsirinin güclənməsi bu ölkənin Rusiya ilə əlaqələrinin zəifləməsinə, Rusiya ilə əlaqələrin güclənməsi isə Türkiyə ilə əlaqələrin zəifləməsinə gətirmişdir;

- Türkiyənin Acarıstan və Abxaziya ilə bağlı məsələlərə münasibətinin özünəməxsus xüsusiyyətləri üzə çıxarılmış, Gürcüstanın ərazi bütövlüyünün dəstəklənməsi və tarixi tellərlə Türkiyəyə bağlı olan region xalqlarının hüquqlarının müdafiəsi istiqamətində atılan addımlar arasında paralellər aparılmışdır;

- Türkiyənin Gürcüstan siyasətinin qurulması, formalaşması və həyata keçirilməsində bu ölkədə yaşayan gürcülərin və Gürcüstanda yaşayan türk xalqlarının, o cümlədən azərbaycanlıların rolu tarixi proseslər kontekstində aparılan müqayisəli təhlillərlə qiymətləndirilmiş, Ahıska türklərinin Gürcüstana repatriasiyası məsələsinə Türkiyənin yanaşmasının özünəməxsus cəhətləri müəyyən edilmişdir. Belə bir qənaətə gəlinmişdir ki, tədqiq olunan illərdə Gürcüstanda yaşayan azərbaycanlılar bu ölkənin Türkiyə ilə münasibətlərində təsirli amilə çevrilmişlər;

- Borçalı (Kvemo-Kartli) – Samtsxe-Cavaxeti-Acarıstan xətti üzrə "türk dəhlizi"nin yaradılması ideyasının gerçəkləşdirilməsi istiqamətində atılan addımlar təhlil olunmuşdur;

- Gürcüstanda Türkiyənin artan iqtisadi və siyasi təsirinin səbəbləri müəyyənləşdirilmişdir;

- Türkiyənin Gürcüstan siyasətində enerji sahəsində əməkdaşlığın qurulması və həyata keçirilməsində əhəmiyyəti təhlil edilmiş, göstərilmişdir ki, 1991-2019-cu illərdə münasibətlərin inkişaf istiqamətlərini və səviyyəsini müəyyənləşdirən ilkin amil enerji tranziti məsələləri olmuşdur;

- iki ölkə arasında mədəniyyət və humanitar sahədə əməkdaşlığın qurulması, həyata keçirilməsi və nəticələri araşdırılmış və qarşılıqlı fayda gətirdiyi göstərilmişdir;

- Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli mexanizminin Cənubi Qafqazda inkişafa və sabitliyə verdiyi töhfələr müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın təkcə Türkiyənin deyil, böyük və regional dövlətlərin Cənubi Qafqaz

siyasətinin tarixini və həyata keçirilməsini öyrənmək baxımından elmi-nəzəri əhəmiyyəti vardır. Dissertasiya işinin başlıca müddəaları və nəticələrindən istifadə edilə bilər:

- Türkiyənin Gürcüstan siyasətinə həsr edilmiş gələcək elmi tədqiqat işlərində;
- ümumiləşdirilmiş əsər, dərslik və dərs vəsaitlərinin hazırlanmasında;
- ali məktəblərdə mühazirələrin oxunmasında və seminar məşğələlərində;
- Azərbaycan Respublikasının xarici siyasətinin Gürcüstan və Türkiyə istiqamətlərinin həyata keçirilməsində iştirak edəcək mütəxəssislərin yetişdirilməsində;
- Qafqazşünaslıq, Türkiyəşünaslıq, Gürcüstanşünaslıq mərkəzlərində mütəxəssis hazırlığında.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu müəllifin müxtəlif ölkələrin nüfuzlu elmi jurnallarında və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici jurnallarda dərc olunmuş məqalələrində öz əksini tapmışdır. Dissertasiya işinin müddəaları və əldə olunmuş elmi nəticələrə dair beynəlxalq və ölkə səviyyəli elmi toplantılarda, Azərbaycan (Bakı, Naxçıvan), Türkiyə (Qars, İzmir, İstanbul), Gürcüstanda (Qori) məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi.** Dissertasiya işi giriş, paraqraflara bölünmüş üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, əlavələr və ixtisarların siyahısından ibarətdir. Tədqiqatın mətninin ümumilikdə həcmi 278 min 640 (ədəbiyyat siyahısı və ixtisarlar istisna olmaqla) işarədir. Giriş hissə 26 min 217, I fəsil 51 min 834, II fəsil 106 min 443, III fəsil 80 min 873, nəticə hissəsi 13 min 273 işarə həcmindədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi, obyekti, predmeti, məqsəd və vəzifələri, dissertasiyanın yazılması zamanı istifadə olunmuş metodlar, müdafiəyə çıxarılan əsas müddəalar və elmi yeniliyi barədə məlumat verilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır. Burada, həmçinin, işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

Dissertasiya işinin **birinci fəsli "Türkiyə Respublikasının Gürcüstan siyasətinə təsir edən amillər"** adlanır və iki paraqrafdan ibarətdir. **"Qarşılıqlı münasibətlərdə tarixi əlaqələrin yeri" adlanan birinci paraqrafda** araşdırılan məsələlərdən aydın olur ki, tarix boyu çoxlu işğallara məruz qalmış Qafqaz regionu imperiyaların, böyük dövlətlərin və xalqların keçid yolu olmuşdur. Qafqaz və bu regionun coğrafi mövqe etibarilə açıq dənizlərə çıxışı olan Gürcüstan strateji əhəmiyyətinə və geosiyasi mövqeyinə görə daim mübarizə aparan dövlət və imperiyaların rəqabət meydanına çevrilmişdir. Gürcüstan fasilələrlə iki əsrə yaxın Rusiya imperiyasının və SSRİ-nin tərkibində olmuşdur.

Qafqazda, o cümlədən Gürcüstanda çoxsaylı türk xalqlarının, o cümlədən azərbaycanlıların tarixi torpaqlarında varlığı, bu ərazinin Orta Asiya ilə bağlayan qovuşaq nöqtəsi olması Türkiyənin regiona olan marağını artırmışdır. Türkiyə region ölkələrinin, o cümlədən Gürcüstanın dövlət müstəqilliyinə, ərazi bütövlüyünə və daxili işlərinə hörmət edərək, qarşılıqlı hörmət və mehriban qonşuluq prinsiplərinə sadiq qalaraq yaxşı münasibətlər qurmağa, əməkdaşlıq mühiti yaratmağa çalışmışdır.

Birinci fəslin "**Türkiyənin Gürcüstan siyasətini şərtləndirən amillər və başlıca məqsədləri" adlanan ikinci paraqrafında** Türkiyə Cümhuriyyətinin Gürcüstan siyasətini şərtləndirən amillər və başlıca məqsədləri araşdırılmışdır. Sovet İttifaqının dağılması və Cənubi Qafqaz respublikalarının dövlət müstəqilliklərini bərpa

etmələrindən sonra Türkiyə Cümhuriyyəti regional proseslərdə fəal rol oynamağa başladı. Cənubi Qafqaz, o cümlədən Gürcüstanla əlaqələr Türkiyənin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etdi. Türkiyə Gürcüstana münasibətdə yürütdüyü xarici siyasət xəttini vahid Qafqaz siyasətinin tərkib hissəsi kimi görmüşdür. Gürcüstanın əlverişli coğrafi mövqeyi Türkiyənin Azərbaycanla və türk dünyasının digər ölkələri ilə iqtisadi əlaqələrində mühüm rol oynamışdır. Gürcüstan Türkiyə üçün əlverişli iqtisadi bazadır.

Aparılan tədqiqatlar nəticəsində belə bir qənaətə gəlinmişdir ki, Türkiyənin xarici siyasətində Gürcüstanın tutduğu yer və iki ölkə arasında münasibətlərin qurulmasına tarixi keçmiş, coğrafi yaxınlıq, qarşılıqlı siyasi, təhlükəsizlik, ticarət, iqtisadi, enerji maraqları, diaspor və b. amillər təsir etmiş, əməkdaşlıq müxtəlif istiqamətlərdə həyata keçirilmişdir.

Dissertasiya işinin **“Türkiyənin Gürcüstan siyasətində siyasi diplomatik, təhlükəsizlik və müdafiə məsələləri**” adlanan ikinci fəsli yarımparaqraflara bölünmüş üç paraqrafdan ibarətdir. **“İkitərəfli siyasi-diplomatik münasibətlər**” adlanan birinci paraqrafda münasibətlərdə ilk addımlar, müqavilə-hüquq bazasının yaradılması, Türkiyənin Gürcüstan siyasətində Azərbaycan amili və üçtərəfli siyasi əməkdaşlıq məsələləri tədqiq edilmişdir.

Türkiyənin 1991-2019-cu illərdə Gürcüstan siyasətini xarakterik xüsusiyyətlərinə görə üç başlıca mərhələyə ayırmaq mümkündür. 1991-2001-ci illəri əhatə edən birinci mərhələdə siyasi sahədə əlaqələr yüksələn xətlə inkişaf etmişdir. 2001-2013-cü illər Türkiyənin Gürcüstan siyasətində ikinci mərhələdir. Bu mərhələdə, Türkiyənin Gürcüstan siyasəti fəallaşmış, iki ölkə arasında qarşılıqlı səfərlərin sayı artmış, siyasi, iqtisadi və mədəni əlaqələr daha da intensivləşmişdir. Siyasi əlaqələrin inkişafı digər sahələrdə əlaqələrin inkişafına təkan vermişdir. 2013-2019-cu illəri əhatə edən üçüncü mərhələdə isə əvvəlki illərlə müqayisədə Türkiyənin siyasətində ciddi yeniliklər müşahidə edilməsə də əlaqələr keçmişdə formalaşdırılmış əsaslar üzərində inkişaf etdirilmişdir.

Türkiyə Gürcüstana münasibətdə yaxın və dost ölkə yanaşmasını davam etdirmişdir. Gürcüstanın siyasi sabitliyi Türkiyənin

mənafelərinə cavab vermişdir. Qafqazda güclü və problemsiz bir Gürcüstan Türkiyə üçün regionda sülhün qorunmasının zəmanəti, siyasi nüfuzunun güclənməsi kimi qəbul olunmuşdur. Türkiyəli tədqiqatçı Necip Torumtayın da ifadə etdiyi kimi, Gürcüstanda qurulan müstəqil dövlət Türkiyənin Qafqaz ilə siyasi, iqtisadi və mədəni əlaqələrinin daha da inkişaf etdirilməsi üçün etibarlı bir dost olmuşdur.[47]

İkinci fəslin ikinci paraqrafı **"Təhlükəsizlik və müdafiə məsələləri"** adlanır. Burada Gürcüstanın təhlükəsizliyinin və müdafiə qabiliyyətinin möhkəmləndirilməsində Türkiyənin roluna diqqət yetirilmişdir. Həmçinin Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlığı məsələləri də tədqiq olunmuşdur.

Türkiyə Cənubi Qafqaz regionunda təkcə iqtisadi və siyasi deyil, hərbi və təhlükəsizlik baxımından da Türkiyə-Gürcüstan-Azərbaycan əməkdaşlığının yaradılmasına çalışmışdır. Gürcüstanın müdafiə qabiliyyətinin artırılması, təhlükəsizliyinin təmin olunması bu ölkənin ərazisindən keçən enerji və nəqliyyat yollarının təhlükəsizliyi ilə birbaşa bağlı olmuşdur.

Tədqiq olunan illərdə Türkiyənin hərbi yardımları Gürcüstan ordusunun NATO standartlarına uyğunlaşdırılmasına, maddi-texniki cəhətdən təchiz edilməsinə yönəlmişdir. Bu məqsədlə Türkiyə tərəfindən müxtəlif layihələr həyata keçirilmiş, Sülh Naminə Ortaq Təhsil Mərkəzi və Türkiyə Silahlı Qüvvələrinin akademiya, məktəb və təlim mərkəzlərində Gürcüstan ordusu üçün kadrlar hazırlanmışdır. Gürcüstanın jandarma qüvvələrinə və sərhəd dəstələrinə təlimlərin keçirilməsi də ikitərəfli əməkdaşlığın vacib istiqamətlərindən birini təşkil etmişdir.

İkinci fəslin üçüncü paraqrafı **"Gürcüstanda separatizm problemi və Türkiyə"** adlanır. Türkiyə dövləti Abxaziya və Tsxinvali məsələlərinin Gürcüstanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olmuş və dəstəkləmişdir. 2008-ci ildən sonra baş

---

[47] Torumtay, N. Değişen Stratejilerin Odağında Türkiye / N.Torumtay. –İstanbul: Milliyet yayınları, –1996. –s.198.

verən proseslərdə Türkiyə Gürcüstanın ərazi bütövlüyünü müdafiə etmişdir. Bütün təzyiq cəhdlərinə baxmayaraq, Gürcüstan ilə münasibətlərini inkişaf etdirmək siyasəti yürütmüşdür.

Dissertasiya işinin üçüncü fəsli **"Ticarət-iqtisadi, enerji, nəqliyyat-kommunikasiya, mədəni və humanitar əməkdaşlıq"** adlanır və dörd paraqrafdan ibarətdir. **"Ticarət-iqtisadi əməkdaşlıq"** adlanan birinci paraqrafda qeyd olunur ki, dövlət müstəqilliyinin bərpasından sonra Türkiyə Gürcüstan üçün iqtisadi nəfəslik rolunu oynamışdır. 1992-ci ildə Türkiyədən Gürcüstana 11 milyon 616 min dollarlıq, 1993-cü ildə isə 34 milyon 513 min dollarlıq mal ixracatı həyata keçirildisə[48], 2014-cü ildə iki ölkə arasındakı ticarət həcmi ümumilikdə 1,67 milyard dollara çatmışdır.[49]

Əməkdaşlıq sahələrindən biri Gürcüstan iqtisadiyyatına türk investisiyalarının qoyulması olmuşdur. Türkiyə şirkətləri öz vəsaitlərini Gürcüstana yatırmağa başladılar. 1997-2010-cu illər arasında Türkiyədən Gürcüstana yatırılan investisiyaların ümumi dəyəri 682,3 milyon dollar olmuşdur. 2017-cı ildə Gürcüstanda 1 milyon dollardan çox kapitalı olan 27 türk şirkəti fəaliyyət göstərmişdir. Bundan əlavə, bu ölkədə 500-ə yaxın kiçik və orta miqyaslı türk şirkətləri işləmişdir.[50]

İki ölkə kənd təsərrüfatı, rabitə, bank sektoru və digər sahələrdə də əməkdaşlıq etmişlər.

Üçüncü fəslin ikinci paraqrafı **"Enerji və nəqliyyat-kommunikasiya siyasəti"** adlanır. Türkiyənin Gürcüstan siyasətində enerji və nəqliyyat sahəsində əməkdaşlıq tarixinin araşdırılmasından aydın olur ki, bunlar iki ölkə arasında münasibətlərin xarakterini müəyyənləşdirən başlıca amillərdən olmuşlar. Türkiyə

---

[48] Yeniden yapılanma sürecinde Türk cümhuriyyetleri ve İslam ülkelerinin sosyo-ekonomik yapıları ve Türkiye ile ilişkileri / –İstanbul: Kalibre qrafik, –1998. –s. 424-425

[49] Köylü, M.K. Türkiye'nin Güney Kafkasya ülkeleri ile finansal bağları ve bölgedeki ticari varlığı // İİSBF Sosyal Bilimler Dergisi, –2017, Aralık. Cilt 4, Sayı 7, –s. 27

[50] Karapınar, M. Gürcistan Hedef-Pazar-Ürün analizi / M.Karapınar, M.Leylioğlu, Ö.Uzundumlu. –Erzurum: Megaofset, –2017. – s. 11.

Gürcüstan iqtisadiyyatında yerini möhkəmləndirmişdir. Qarşılıqlı iqtisadi fəaliyyətin əsas sahələrindən biri olan enerji iki ölkənin qarşılıqlı asılılığını müəyyənləşdirmişdir. Tranzit ölkə olaraq Gürcüstan regional əhəmiyyətli enerji layihələrinin mərkəzi dövlətlərindən birinə çevrilmişdir. Təhlillər göstərir ki, Azərbaycan və Türkiyənin reallaşdırdığı əksər layihələrdə Gürcüstanın tranzit ölkə olması enerji və nəqliyyat-kommunikasiya sahələrində Türkiyə, Azərbaycan və Gürcüstan arasında davamlı əməkdaşlıq mühiti formalaşmışdır.

TRACECA layihəsi Türkiyə, Gürcüstan və Azərbaycan arasında nəqliyyatın inkişafına təkan vermiş, Türkiyənin Cənubi Qafqaz bazarındakı təsirini artırmışdır. BTC əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz boru kəmərləri, Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu və digər transmilli nəqliyyat-kommunikasiya layihələri Türkiyə və Gürcüstanın enerji, transmilli nəqliyyat və dəhliz tələbatlarının ödənilməsi problemlərini həll etməklə yanaşı, beynəlxalq enerji-nəqliyyat qovşağı kimi Azərbaycan da daxil olmaqla hər üç ölkənin dünyadakı nüfuzunu artırmışdır.[51]

Fəslin **"Mədəni və humanitar əlaqələr"** adlanan üçüncü paraqrafında aparılan təhlillərdən aydın olur ki, tədqiq edilən illərdə Türkiyə Gürcüstan ilə humanitar və mədəni sahələrdə də sıx əməkdaşlıq qurmağa nail olmuşdur. Türkiyənin Gürcüstan siyasətinin humanitar aspektlərinin gerçəkləşdirilməsində TİKA-nın (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi) mühüm rolu olmuşdur. Türkiyəni Gürcüstanda tanıtmaq, bu ölkənin iqtisadi və sosial inkişafına töhfə vermək üçün TİKA-nın Tbilisidə yaradılan Koordinasiya Ofisi 1994-2019-cu illərdə çoxlu layihələr həyata keçirmişdir. Ofis fəaliyyətə başladığı vaxtdan Gürcüstanda təhsil, elm, mədəniyyət, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə 700-dən çox layihənin icrasını təmin etmişdir. Belə fəaliyyətlər Türki-

---

[51] Əhmədov, N. Azərbaycan-Türkiyə: bir ananın iki övladı: Türkiyə Cümhuriyyəti-95 // Xalq qəzeti. – 2018, 28 oktyabr. – s.4.

yənin Gürcüstan əhalisi arasında nüfuzunu artırmışdır.[52]

Türkiyə Gürcüstanla humanitar sahədə əməkdaşlıqda müsəlman və türk amilindən də istifadə etmişdir. Türk əhalinin yaşadığı bölgələrdə milli, acarlar kimi türk olmayıb müsəlman olan qrupların yaşadığı ərazilərdə isə dini təsir imkanlarını Türkiyə əlverişli şəkildə tətbiq etmişdir. Türkiyə Ahıska türklərinin Gürcüstana repatriasiyasına tərəfdar olmuşdur.

Üçüncü fəslin dördüncü paraqrafı **"Çoxtərəfli əməkdaşlığın həyata keçirilməsi"** adlanır. Tədqiq edilən illərdə Türkiyənin Gürcüstan siyasətində çoxtərəfli formada əməkdaşlıq özünəməxsus yer tutmuşdur. Belə əməkdaşlığın qurulduğu və həyata keçirildiyi təşkilatlardan biri Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) olmuşdur. QDİƏT çərçivəsində Türkiyə və Gürcüstan ticarət və iqtisadi inkişaf, bank işi və maliyyə, rabitə, energetika, nəqliyyat, kənd təsərrüfatı və aqrar-sənaye, səhiyyə və əczaçılıq, ətraf mühitin mühafizəsi, turizm, elm və texnika, statistik məlumatlar və iqtisadi informasiyaların mübadiləsi, gömrük və digər sərhəd orqanları arasında əməkdaşlıq, insanlar arasında əlaqə, mütəşəkkil cinayətkarlıq, narkotiklərin, silahların və radioaktiv materialların qeyri-qanuni dövriyyəsi, hər növ terror aktları və qeyri-qanuni miqrasiya ilə mübarizə kimi sahələrdə əməkdaşlıq etmişlər. QDİƏT Türkiyə üçün Gürcüstanla yaxın münasibətləri təmin etməkdən ötrü bir vasitə olmuşdur.

Dissertasiya işinə dair elmi-nəzəri ümumiləşdirmələr **Nəticə** hissəsində verilmişdir. Belə qənaətə gəlinmişdir ki, türk və gürcü xalqları arasında qədim və zəngin keçmişi olan əlaqələri coğrafiya, qonşuluq və tarixi proseslər şərtləndirmişdir. Türkiyə və Gürcüstan ərazilərində tarixin müxtəlif dövrlərində yaranmış dövlətlərin mehriban qonşuluq əlaqələr qurduqları və ya əksinə, bir-birinə qarşı mübarizə, müharibələr apardıqları vaxtlar olmuşdur.

Müxtəlif dövrlərdə çar Rusiyası, Almaniya kimi dövlətlər Osmanlı dövlətinə qarşı gürcülərdən istifadə etməyə çalışsalar da,

---

[52] TİKA dünyası / Ankara: T.C.Başbakanlık, –2012, Haziran. –s. 34-39.

türk və gürcü xalqları mehriban qonşuluq və dostluq münasibətlərini qoruyub saxlamışlar. Gürcüstan Demokratik Respublikası ilə Osmanlı dövləti arasında aparılan danışıqlar, sonrakı illərdə Türkiyə Cümhuriyyəti ilə Gürcüstan SSR arasındakı əlaqələr bunu göstərir.

XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərində "soyuq müharibə"nin başa çatması, Gürcüstanın dövlət müstəqilliyini bərpa etməsi və SSRİ-nin dağılması Türkiyənin bu qonşu ölkə ilə birbaşa münasibətlər qurmasına şərait yaratmışdır. Türkiyənin Cənubi Qafqaz siyasətində 1991-ci ildən etibarən Gürcüstan xüsusi yer tutmuşdur. Türkiyə Gürcüstanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur.

Türkiyənin Cənubi Qafqazda geniş maraqları bütövlükdə Qafqazda, o cümlədən Gürcüstanda çoxsaylı türk xalqlarının tarixi torpaqlarında yaşaması, regionun Türkiyəni Orta Asiya ilə bağlayan qovuşaq olması ilə şərtlənmişdir. Türkiyə Gürcüstanın müstəqilliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmış və qarşılıqlı faydalı əməkdaşlıq mühiti yaratmağa çalışmışdır.

1991-2019-cu illərdə Türkiyə Cənubi Qafqazda geosiyasi və geoiqtisadi maraqlarını həyata keçirməklə təsirini möhkəmləndirməyə çalışmışdır. Türkiyə və Gürcüstan arasında ticarət-iqtisadi, enerji, mədəni, humanitar əməkdaşlıq qurulmuş və həyata keçirilmişdir. "Yumşaq güc" siyasəti tədqiq olunan illərdə istifadə olunan əsas mexanizmlərdən biri olmuşdur.

Türkiyə-Gürcüstan siyasi-diplomatik münasibətləri digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə inkişafına zəmin yaratmışdır. Türkiyə Gürcüstanla diplomatik əlaqələr quran ilk ölkələrdən biri olmuşdur.

Müxtəlif sahələrdə əməkdaşlığın müqavilə-hüquq bazası yaradılmışdır. Gürcüstan və Türkiyə tərəfdaş olmuşlar. İki ölkənin siyasi sahədə münasibətləri, digər sahələrdə münasibətlərin yüksək səviyyədə inkişaf etməsi üçün zəmin formalaşdırmış, iqtisadi maraqlar isə siyasi münasibətlərin qurulmasını və inkişaf etdirilməsini şərtləndirmişdir. Gürcüstan demək olar ki, bütün

regional iqtisadi layihələrdə, xüsusilə enerji və nəqliyyat sahəsində Türkiyə və Azərbaycanla birlikdə hərəkət etmişdir.

2008-ci il müharibəsindən sonra Rusiya ilə münasibətləri pozulma nöqtəsinə gəldiyindən NATO, Avropa İttifaqı ilə əlaqələrini inkişaf etdirməyə üstünlük verən Gürcüstan üçün Türkiyə önəmli bir regional müttəfiqə çevrilmişdir.

1991-2019-cu illərdə Türkiyənin Gürcüstan siyasətini bir çox səciyyəvi xüsusiyyətlərinə görə üç mərhələyə ayırmaq mümkündür: 1991-2001-ci illəri əhatə edən birinci mərhələdə siyasi sahədə əlaqələr yüksələn xətlə inkişaf etmişdir. Türkiyənin Gürcüstan siyasətində ikinci mərhələ olan 2001-2013-cü illərdə, xüsusilə "Qızılgül inqilabı"ndan sonra Türkiyənin siyasəti fəallaşmış, iki ölkə arasında siyasi, ticarət-iqtisadi, mədəni və humanitar əməkdaşlıq daha da genişlənmişdir. 2013-2019-cu illəri əhatə edən üçüncü mərhələdə əvvəlkilərlə müqayisədə Türkiyənin siyasətində ciddi yeniliklər müşahidə edilməsə də, əməkdaşlıq formalaşdırılmış müqavilə-hüquq bazası əsasında davam etdirilmişdir.

Türkiyənin Gürcüstan siyasətində təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlıq özünəməxsus yer tutmuşdur. Türkiyə Gürcüstanda siyasi sabitliyə böyük əhəmiyyət vermiş, gürcü hökumətini hərbi sahədə fəal əməkdaşlığa cəlb etmişdir. Hərbi və təhlükəsizlik sahəsində Türkiyənin Gürcüstana diqqət yetirməsinin əsas səbəblərindən biri Xəzər dənizinin Azərbaycan sektorunda çıxarılan karbohidrogen ehtiyatlarını Türkiyəyə daşıyan kəmərlərin təhlükəsizliyini təmin edən ölkə rolunu oynaması olmuşdur.

Türkiyənin Gürcüstan siyasətinin formalaşması və həyata keçirilməsinə Azərbaycan amili güclü təsir etmişdir. Ona görə də Türkiyə Cənubi Qafqaz regionunda təkcə ticarət-iqtisadi və siyasi deyil, hərbi və təhlükəsizlik baxımından da Türkiyə-Gürcüstan-Azərbaycan əməkdaşlığının yaradılmasına çalışmışdır.

İki ölkə arasında hərbi əməkdaşlıq sahəsində bir neçə saziş və müqavilə imzalanmışdır. Türkiyənin hərbi yardımları Gürcüstan ordusunun döyüş qabiliyyətinin artırılması, təlim görmüş kadr

ehtiyacının ödənilməsi, xüsusi və dövlət silahlı birliklərinin hazırlanması, maddi-texniki cəhətdən təmin olunması məqsədini güdmüşdür.

Türkiyə Abxaziya və Tsxinvalidə separatizmə qarşı çıxmış, münaqişələrin Gürcüstanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində dinc yollarla həllinin tərəfdarı olmuş və separatçı qurumları tanımamışdır.

İki ölkə arasında ticarət-iqtisadi sahədə sıx əməkdaşlıq həyata keçirilmişdir. İqtisadiyyat Türkiyənin Gürcüstan siyasətində inkişaf meyillərini müəyyən edən başlıca amillərdən olmuşdur.

Neft və qaz kəməri layihələri Gürcüstanın Türkiyə üçün strateji əhəmiyyətini xeyli artırmışdır. Açıq dənizlərə çıxışı olmayan Xəzər regionundan karbohidrogen ehtiyatları Türkiyə və Avropa bazarlarına BTC əsas ixrac neft və BTƏ qaz boru kəmərləri vasitəsilə nəql edilmişdir. Əməkdaşlığın əsas sahələrindən biri olan enerji iki ölkənin qarşılıqlı asılılığını şərtləndirmişdir. Tranzit ölkə olaraq Gürcüstan regional əhəmiyyətli enerji layihələrinin vacib dövlətlərindən birinə çevrilmişdir.

İki ölkə nəqliyyat-kommunikasiya sahəsində səmərəli əməkdaşlıq etmişlər. TRACECA layihəsi Türkiyə, Gürcüstan və Azərbaycan arasındakı nəqliyyatın inkişafına təkan vermiş, Türkiyənin Cənubi Qafqazdakı rolunu və təsirini artırmışdır. BTC əsas ixrac neft, BTƏ qaz boru kəmərləri, BTQ dəmiryolu və digər transmilli nəqliyyat-kommunikasiya layihələri Türkiyə və Gürcüstanın enerji, nəqliyyat və dəhliz tələbatlarının ödənilməsi problemlərini həll etməklə yanaşı, həm də beynəlxalq enerji-nəqliyyat qovşağı kimi Azərbaycan da daxil olmaqla hər üç ölkənin dünyadakı nüfuzunu artırmış, mövqelərini möhkəmləndirmişdir.

Azərbaycan Respublikasının 2020-ci il 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra regionda yaratdığı yeni geosiyasi şərait geniş miqyasda əməkdaşlıqla bağlı təkliflərin meydana çıxmasına imkan vermişdir. İrəli sürülən 3+3 formatında (Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya və İran)

regional əməkdaşlıq ölkələr üçün perspektivlər vəd etmişdir. Lakin Abxaziya və Tsxinvali regionundakı separatizm səbəbindən rəsmi Tbilisi bu formatı qəbul etməmişdir.

Gürcüstanın Türkiyə üçün geosiyasi əhəmiyyətini artıran layihələrdən biri BTQ dəmir yolu layihəsi olmuşdur. Layihənin həyata keçirilməsi İpək Yolunun bərpasına, Gürcüstanla türk dövlətləri, eləcə də Avropa və Asiya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsinə töhfə olmuşdur.

Türkiyənin Gürcüstan siyasətində mədəniyyət, humanitar sahələrində əməkdaşlıq özünəməxsus yer tutmuşdur. Türkiyə Gürcüstan ərazisində dil kursları, mədəniyyət mərkəzləri açmışdır. Mədəni əməkdaşlıq türk və gürcü xalqlarının daha da yaxınlaşmasına kömək etmişdir.

İki ölkə arasında əməkdaşlıq çoxtərəfli formatda da qurulmuş və həyata keçirilmişdir. Bu baxımdan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı özünəməxsus rol oynamışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır**


1. Türkiyə-Gürcüstan sərhəd qapısı // International Euroasia Congress on Scientific Researches and Recent Trends-V, –Baku, –December 16-19, –2019, Vol. 2, – s. 170-179.
2. Gürcüstanın iqtisadi baxımdan Türkiyə üçün əhəmiyyəti // Proceedings book of International Asian Congress on contemporary sciences-IV, –Baku: Khazar University, –June 26-28, –2020, – s. 201-206.
3. Türkiyə Respublikası və Gürcüstan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq // Naxçıvan Universiteti Elmi əsərləri, –2020. № 4, – s. 182-189.
4. Türkiyə Respublikasının yaranmasının Şərqdə əhəmiyyəti // AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Şərq xalqlarının I qurultayı. 1920. Şərq xalqları 100 il əvvəl və bu gün Beynəlxalq Elmi Konfransı, –Bakı, –2020. –s. 119-121.
5. Azərbaycan-Türkiyə-Gürcüstan arasında enerji əlaqələri // Proceedings of the international scientific conference on “Science and education in the 21st century: theory and practice”, –Kars: Elger, –February 20-21, –2021. – s. 222-226, **(Türkiyə).**
6. Türkiyə və Gürcüstan arasında münasibətlərin tarixinə qısa baxış // Gənc tədqiqatçı, –2021. VII cild, №1, – s.288-296.
7. Türkiyə və Gürcüstan arasında münasibətlərin tarixinə qısa baxış // Gənc tədqiqatçı, –2021. VII cild, №2, – s. 226-234.
8. Türkiye-Azerbaycan ve Türkiye-Gürcistan ekonomik-ticari işbirliğinin bölge jeopolitiğine etkileri // Yeni Türkiye dergisi, –2021, Eylül-Ekim. Sayı 121, c.2, – ss.180-188, **(Türkiyə).**
9. Türkiyə-Gürcüstan münasibətlərini şərtləndirən amillər // –Bakı: Tarix və onun problemləri, –2021. №1, – s. 119-123.

10. Gürcüstandakı münaqişələr və Türkiyə // “Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə” Respublika Elmi Konfransı, –Bakı, –23 sentyabr, –2021. – s. 91-93.
11. Beynəlxalq enerji layihələrində Azərbaycanın rolu // “Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi” mövzusunda konfrans, –Bakı: Qafqazşünaslıq İnstitutu, –14 oktyabr, –2021. – s. 83-85.
12. Сафарова, Ч.Г. Факторы, обусловливающие политику Турции в Грузии (1991-2019 гг.) // –Москва: Вопросы Национальных и Федеративных отношений, –2021. Выпуск 12(81), Том 11, – с. 3627-3637, **(Rusiya).**
13. Turkey and Georgia's word energy market transformatıon strategy for "Corridor Countries" and its results // International Aegean Conferences On Social Sciences & Humanities-V, –Izmir, –25-26 Şubat, – 2022. – s. 224-233, **(Türkiyə).**
14. Turkish-Georgian humanitarian relations: main directions and realities // –Bakı: Tarix, İnsan və Cəmiyyət, –2022. №1 (34), –s. 141-149.
15. Türkiyənin Qafqazda çoxtərəfli regional əməkdaşlığa baxışı // “Təhsil, Tədqiqat və innovasiyanın vəhdəti” mövzusunda doktorant və magistrantların IV respublika elmi konfransının materialları, – Naxçıvan, –29 aprel, –2022. – s. 23-26.
16. Qara dəniz iqtisadi əməkdaşlıq çərçivəsində Türkiyə-Gürcüstan əlaqələri // – Bakı: Qafqazşünaslıq, –2022. №1 (3), – s. 52-61.
17. Cənubi Qafqazda iqtisadi inteqrasiya prosesləri: Azərbaycan-Türkiyə-Gürcüstan nümunəsi // 11th İnternational İstanbul Scientific Research Congress, –İstanbul, –15-17 october, –2022. – s. 676-683, **(Türkiyə).**
18. Türkiyənin enerji diplomatiyasında Cənubi Qafqaz // Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, –2022. –№2, – s. 117-123.

19. Historical background of the Turkish-Georgian border // 3rd International Artemis Congress on Humanities and Social Sciences, –İzmir, –March 25-27,–2023. – pp. 380-385, **(Türkiyə).**
20. The foreign policy of the Republic of Türkiye during the AK party // Gənc tədqiqatçı, –2023. IX cild, №3, – s. 135-140.
21. Azerbaijan-Turkey-Georgia Political and Military Coordination in the South Caucasus at the XX Century and the Beginning of the XXI Century // In Service to Historical Science The collection dedicated to the 70th anniversary of professor Otar Janelidze, –Tbilisi,–2024, –pp. 285-292, **(Gürcüstan)**
22. The World's Leading Transport and Transit Hub: Azerbaijan-Türkiye-Georgia // Akademik Tarih ve Düşünce Dergisi, Türkiyə,–2024, 11 (4), –pp. 2629-2638, **(Türkiyə).**

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 10ᵃ da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az. -1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.10.2024
Kağızın formatı:A5
Həcm: 46766
Tiraj: 100